# Uşaq və Ailə Dəstək Planı

Dr Peter Grimes
Marieke Stevens
Arlene dela Cruz
Tricia Mercado
Kaisa Ligaya Sol Cruz

# Uşaq və Ailə Dəstək Planları

İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları

Əlavə kitabça

Müəlliflər:

Dr Peter Grimes
Marieke Stevens
Arlene dela Cruz
Tricia Mercado
Kaisa Ligaya Sol Cruz

Bu vəsait Avropa İttifaqının maliyyə dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi tərəfindən icra olunan "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi və UNICEF tərəfindən icra olunan "Azərbaycanda inklüziv təhsilin genişləndirilməsi" layihəsi çərçivəsində hazırlanmışdır.
"Regional İnkişaf" İctimai Birliyi tərəfindən tərcümə edilmiş və nəşr olunmuşdur.

Bu vəsaitin azərbaycan versiyası onlayn istifadəyə açıqdır (https://inkluzivtehsil.az/library).

Aprel 2019

Kitab **"İdeal Print"** mətbəəsində çap olunub.

# Mündəricat

Abreviaturaların siyahısı.......... 4
Giriş..........5
Məqsəd..........6
Məzmun.......... 6
İnklüziv təhsil planlamasına ənənəvi yanaşma..........7
Fərdi Təhsil Planları. .......... 7
Fərdi Təhsil Planlarının tənqidi..........8
Uşaq və Ailə Dəstək Planları..........11
Uşaq və Ailə Dəstək Planı nədir?..........11
Uşaq və Ailə Dəstək Planlarının hazırlanmasına kimlər cəlb edilməlidir?..........12
Uşaq və Ailə Dəstək Planı necə hazırlanmalıdır?.......... 13
Uşaq və Ailə Dəstək Planlarına baxışın keçirilməsi..........17
Uşaq və Ailə Dəstək Planının hazırlanmasında yol verdiyimiz xətalar.......... 18
Məlumatların toplanması strategiyası..........20
Hədəflərin qoyulması.......... 22
Yekun.......... 24
Əlavə 1 – Uşaq və Ailə Dəstək Planının şablonu.......... 25
İstinadlar..........33

# Abreviaturaların siyahısı

| | |
|---|---|
| FTP | Fərdi Təhsil Planı |
| UNICEF | BMT-nin uşaq fondu |
| RİİB | "Regional İnkişaf" İctimai Birliyi |
| UADP | Uşaq və Ailə Dəstək Planları |

# Giriş

Bu kitabça "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması proqramları"na əlavə olaraq UNİCEF və RİİB üçün tərtib edilmişdir. "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması proqramları" Azərbaycanda müəllimlərin inklüziv siniflərdə tədris etmək imkanları və səriştələrinin artırılması məqsədilə hazırlanmışdır. Sözügedən proqramların əsas hədəfi həm ümumi və xüsusi təhsil sistemində çalışan müəllimlər, həm də bu sahələr üzrə təhsil alan tələbələrdir. Bir sıra praktik bölmələr artıq müəllim kimi çalışan və müəllimlik ixtisası üzrə təhsil alanların inkişafı üçün innovativ yanaşmalar, bərabər hüquqlara əsaslanan inklüziv təhsilin əsas konseptləri, inklüziv və əməkdaşlığa əsaslanan məktəb mədəniyyətinin inkişaf etdirilməsi və inklüziv təlim mühiti və dərslərin hazırlanmasına bələdçilik edir.

"Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması proqramları"nın 4.9-cu bölməsi "Uşaq və Ailə Dəstək Planlarını" təqdim edir. Bu yanaşmanın Azərbaycanda tamamən yeni olmasını nəzərə alaraq "Uşaq və Ailə Dəstək Planları" üzrə daha ətraflı məlumat təqdim etmək üçün əlavə kitabçanın hazırlanması qərarına gəldik. Müəllimlərin təlimçiləri «Uşaq və Ailə Dəstək Planları" üzrə təlim sessiyalarını hazırlayarkən və ya təlim iştirakçılarını daha geniş məlumatlanmaq istədikdə bu kitabçadan istifadə edə bilərlər.

## Məqsəd

- "Uşaq və Ailə Dəstək Planları" və "Fərdi Təhsil Planları" (FTP) arasındakı fərqin təqdim edilməsi
- "Uşaq və Ailə Dəstək Planı" üzrə şablon və onun məzmunu ilə tanışlıq
- "Uşaq və Ailə Dəstək Planları"nın hazırlanmasında müxtəlif maraqlı tərəflərlə işləmək üçün strategiyaların təqdim edilməsi
- Müvafiq öyrənmə hədəflərinin qoyulması

## Məzmun

Kitabça inklüziv təhsilin planlamasına ənənəvi yanaşmaları əks etdirən bölmə ilə başlayır. Sözügedən bölmə Fərdi Təhsil Planları və bu yanaşma ilə əlaqəli çətinliklərdən bəhs edir. Növbəti bölmə Fərdi Təhsil Planlarına alternativ olaraq əlilliyin sosial modeli və inklüziv təhsilə bərabərhüquqlu yanaşmaya daha uyğun gələn Uşaq və Ailə Dəstək Planlarını təqdim edir. Bu bölmə Uşaq və Ailə Dəstək Planlarının mahiyyəti, tərkib hissələri, necə hazırlanması və bu işə kimin cəlb edilməsinə dair ümumi icmalı əks etdirir. Bölmə, Uşaq və Ailə Dəstək Planlarının hazırlanmasında üzləşdiyimiz ümumi xətaların xülasəsi ilə tamamlanır. Kitabçanın sonuncu bölməsi isə Uşaq və Ailə Dəstək Planlarının əsası kimi müvafiq öyrənmə hədəflərinin qoyulmasından bəhs edir.

# İnklüziv təhsil planlamasına ənənəvi yanaşma

## Fərdi Təhsil Planları

Əlilliyi olan uşaqların ümumtəhsil sistemindən təcrid olunması və ya onların diskriminasiyasına reaksiya olaraq İnklüziv təhsil konsepsiyasının yaranması 1980-ci illərin sonu 1990-cu illərin əvvəlinə təsadüf edir. Demək olar ki, konsepsiyanın yaranmasından dərhal sonra 1990-cı illərin əvvəllərində ilk inklüziv təhsil layihəsi hazırlanaraq həyata keçirildi. O zamanlar konsepsiya hələ də tamamən yeni sayılırdı. Əlilliyi olan uşaqların ümumtəhsil müəssisələrində tam iştirakı və tədris prosesində mövzuların məzmununun öyrənmələrini təmin etmək məqsədilə müəllimlərin hansı praktik təlim strategiyalarından istifadə etməsi haqqında çox az məlumat var idi. Bu sahə üzrə siyasəti müəyyənləşdirən və icra edən tərəflər yalnız mövcud təcrübəyə əsaslanırlar: xüsusi təhsildə əldə edilən bilik və bacarıqlara. Nəticədə əlilliyi olan uşaqların ümumtəhsil müəssisələrində təhsilə cəlb edilməsini dəstəkləmək üçün inklüziv məktəblər xüsusi məktəblər üçün hazırlanmış metod və alətləri tətbiq etməyə başladı. Bu prosesdə üstünlük təşkil edən yanaşmalardan biri də Fərdi Təhsil Planları (FTP) idi. Bu planlar 1993-cü ildə Böyük Britaniyanın Xüsusi Təhsil Ehtiyacları üzrə qanunla müəyyən edilmiş ilk Praktiki Rəhbərliyi vasitəsilə rəsmi olaraq ictimaiyyətə təqdim edilmişdir. Fərdi Təhsil Planı

əlilliyi olan fərdi uşağın təhsil mühitində ehtiyac və tələblərini əks etdirən müstəqil plandır. Plan uşağın fərdi ehtiyaclarını əks etdirir, o cümlədən fərdi öyrənmə hədəfləri və bu hədəflərə nail olmaq üçün xüsusi strategiyaları müəyyən edir.

FTP-dən istifadə adətən zəruri xarakter daşıyırdı. Dünyadakı hökumətlər, beynəlxalq şirkətlər və QHT-lər əlilliyi olan uşaqların ümumtəhsil sisteminə cəlb edilməsi prosesinin bir hissəsi kimi FTP-dən istifadəyə həvəsləndirilir və hətta məcbur edilirdi. FTP-nin effektivliyi, müvafiqliyi və təsiri heç də həmişə ətraflı təhlil edilmirdi. Bir çox hökumətlər, beynəlxalq şirkətlər və QHT-lərin FTP-nin istifadəsinin təşviq olunmasının səbəbi bu yanaşmanının ümumi qəbul edilmiş yanaşma olması idi, lakin elmi-təcrübi sübutlar etibarlı deyildi. Son 15 il boyu tədqiqatçı və praktiklər əlilliyi olan uşaqların ümumtəhsil məktəblərinə cəlb edilməsinin əsas vasitəsi kimi FTP-dən geniş istifadə edilməsi ilə əlaqəli olaraq gündəmə bir sıra mübahisəli məsələlər qaldırmağa başladılar.

## Fərdi Təhsil Planlarının tənqidi

FTP və fərdi dəstəyin inklüziyanı adətən asanlaşdırması və ya təcrid olunmanı artırması barədə bəzi mübahisələr mövcuddur. Fərdi şagirdləri hədəfləyən FTP-lər və digər yanaşmalarla bağlı bəzi çətinliklər yaranmışdır[1]:

- FTP-lər təhsildə əlyetərlilik və iştirakı artırmaq üçün fərdi müdaxilə və fəaliyyətlər üzərində fokuslanır. Məhz bu halda təhsildə fərdi problemlər üçün baryerlər yaradan mürəkkəb sosial məsələlər azalır;
- FTP-lər bütün uşaqlar üçün təhsil və ümumməktəb sisteminin yaxşılaşdırılması məqsədilə strategiyaların axtarılmasından yayınır;

1. Jenny Corbett, Supporting Inclusive Education. A Connective Pedagogy (London and New York: RoutledgeFalmer Taylor & Francis Group, 2001). Alison Ekins and Peter Grimes, Inclusion: Developing an Effective Whole School Approach (Berkshire: Open University Press, 2009). Anastasia Liasidou, Inclusive Education and the Issue of Change. Theory, Policy and Pedagogy (New York: Palgrave Macmillan, 2015). Lani Florian and Kristine Black-Hawkins, «Exploring Inclusive Pedagogy,» British Educational Research Journal 37, no. 5 (2011).

- Fərdi yanaşmalar əlavə və ya müxtəlif tədris strategiyaları tələb edən xüsusi qrup uşaqlara aşkar şəkildə işarə etdiyi üçün bu uşaqları "damğalayır";
- Bu yanaşmalar adətən əlilliyi olan uşaqlar üzrə gözləntiləri azaldır və tədris proqramının keyfiyyətini aşağı salır. Gözləntilərin aşağı olması uğurlu inklüziv təhsil yolunda əsas maneə sayılır.

Təhsil çərçivəsində növ əmələ gəlmədən yaranmış fərdi yanaşmalar adətən təcrid olunmanın daha zərif və hiss edilməyən növünün yaranmasına səbəb olur. Xüsusi təhsil üçün hazırlanmış yanaşmalar heç də həmişə ümumtəhsil sistemində istifadə üçün münasib olmur. Fərdi və ya kiçik qruplar halında əlavə təlimlərin keçirilməsi ilə müşayiət olunan uşaqların qiymətləndirilməsi və diaqnostikası üzrə xüsusi təhsilin ənənəvi təcrübəsi onların şəxsi keyfiyyətlərinin mürəkkəbliyini nəzərə almır və əlilliyi olan uşaqlarla əlaqədar məktəb və icmaların yaratdığı təhsil çətinliklərinə əhəmiyyət vermir. Diqqətin fərdi və kiçik qruplarla tədris üzərində cəmlənməsi xüsusilə məhdud resursların mövcudluğu şəraitində olmaqla adi siniflərdə həmişə özünü doğrultmur. Bu əlilliyi olan uşaqların təcrid olunmuş siniflərdə tədris edilməsinin daha məqsədəuyğun olması fikrini irəli çəkir[2].

İnklüziv təhsil xüsusi müəllimlərin xüsusi təhsil təcrübələrindən istifadə edərək əlilliyi olan uşaqlara tədris etməsi deyil. Əlilliyi olan uşaqların adi tədris proqramına riayət edə bilməsi üçün 'yetişdirilməsi' və ya 'düzəldilməsi' yanaşmaları effektiv deyil. Xüsusi təhsil ehtiyacların və məhdudiyyətlərin aradan qaldırılması üzərində fokuslanmaqdansa bütün uşaqların öyrənməsi üçün baryerlərin araşdırılması və aradan qaldırılması üçün daha əsaslı addımdır. Bütün uşaqların öyrənməsinə dəstək və əlyetərliliyini təmin etmək üçün ümumi tədris proqramı və pedaqoqikada islahatın edilməsi daha effektivdir. Bu proses bütün uşaqlar üçün daha yaxşı olan öyrənmə mühiti, tədris proq-

2. Mel Ainscow, Understanding the Development of Inclusive Schools (London: Falmer Press, 1999). Len Barton, «Inclusive Education: Romantic, Subversive or Realistic?,» International Journal of Inclusive Education 1, no. 3 (1997). Roger Slee, «'Inclusion in Practice': Does Practice Make Perfect?,» Educational Review 53, no. 2 (2001). Ekins and Grimes, Inclusion: Developing an Effective Whole School Approach.

ramı və pedaqoqikanın formalaşmasına təkan verəcək, eyni zamanda fərdi düzəlişlərin edilməsi və yardımçı texnologiyadan istifadəni azaldacaq. Bütün uşaqların digər uşaqlar kimi eyni yüksək keyfiyyətli tədris proqramına çıxış və keyfiyyətli təhsildən bəhrələnmək hüququ olmalıdır[3].

Belə ki, FTP-lərin tənqid edilməsi uşaqlar arasında fərdi öyrənmə fərqlərinin olmasının inkar edilməsi demək deyil. Bu öyrənmə fərqləri mövcuddur, lakin tibbi diaqnoz və məhdudiyyətlərə əsaslanmır. Əksinə müxtəlifliyin olması uşaqların öyrənmə aktivliklərinə cavab reaksiyası verməyin müxtəlif üsulları ilə əlaqəlidir. Habelə öyrənmədə müxtəlifliyin olması uşaqda deyil sosial mühitdə bərqərar olur[4]. FTP-lər əlilliyi olan uşaqların təhsildə qarşılaşdığı problemləri fərdi uşaqlara aid etdiyindən  əlilliyin tibbi modeli çərçivəsindədir. Əsas diqqət mərkəzi bu çətinliklərin öhdəsindən gəlmək üçün fərdi strategiyalar üzərində cəmlənir. Digər tərəfdən Uşaq və Ailə Dəstək Planları əlilliyin sosial modelinə əsaslanır. Onlar əlilliyi olan uşaqların çətinliklərini məktəb və evdə olan sosial baryerlərlə əlaqələndirir. Əsas diqqət uşaqların 'düzəldilməsinə' deyil, baryerlərin müəyyən edilməsi, resursların bölüşdürülməsi sxeminin qurulması və hamı üçün baryerlərin aradan qaldırılması üçün qarşılıqlı səylərin göstərilməsi üzərində cəmlənir.

---

3. Chuck Hitchcock et al., «Providing New Access to the General Curriculum. Universal Design for Learning,» Teaching Exceptional Children 35, no. 2 (2002). Ann Cheryl Armstrong, Derrick Armstrong, and Ilektra Spandagou, Inlcusive Education. International Policy and Practice (London, California, New Delhi and Singapore: SAGE Publications, 2010). UN Committee on the Rights of Persons with Disabilities, «General Comment No.4 (2016), Article 24: Right to Inclusive Education, Crpd/C/Gc/4,» (Retrieved from: http://www.refworld.org/docid/57c977e34.html (Last accessed on 07/09/18): UN Committee on the Rights of Persons with Disabilities, 2016). UNESCO, «A Guide for Ensuring Inclusion and Equity in Education,» (Paris: UNESCO, 2017).
4. Florian and Black-Hawkins, «Exploring Inclusive Pedagogy.»

# Uşaq və Ailə Dəstək Planları



## Uşaq və Ailə Dəstək Planı nədir?

Uşaq və Ailə Dəstək Planı inklüziv məktəblərdə əsas maraqlı tərəflərə uşaqlar haqqında məlumat toplamaq, bu məlumatlar əsasında təlim hədəflərini müəyyən etmək və bu təlim hədəflərinə çatmaq üçün lazım gələn dəstək və vasitələri planlaşdırmağa kömək etmək üçün bir vasitədir. Uşaq və Ailə Dəstək Planları icranı dəstəkləmək üçün monitorinq və planlama prosedurlarını müəyyən edir.

Uşaq və Ailə Dəstək Planları əlilliyin sosial və ya bərabərhüquqlu əsaslı modeli zəminində hazırlanır[5]. Bu o deməkdir ki, əsas diqqət əlyetərlilik və iştirak çətinlikləri, habelə məktəb icmasından başlıca maraqlı tərəflərin uşaqların üzləşdiyi bu çətinlikləri aradan qaldırmaq üçün nələr edə biləcəyinə istiqamətlənir. Belə ki, burada diqqət mövcud təhsil sisteminə uyğunlaşdırmaq üçün uşağı necə dəyişmək lazım gəldiyinə yönəldilmir.

5. Bax Bölmə 2.2 'Sosial modeldə əlillik, İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları.

## Uşaq və Ailə Dəstək Planlarının hazırlanmasına kimlər cəlb edilməlidir?

Uşaq və Ailə Dəstək Planının hazırlanması prosesi bütün maraqlı tərəflərin qarşılıqlı səyi çərçivəsində həyata keçirilməlidir. Proses əvvəlcədən təyin olunmuş sosial işçi, təhsil məsləhətçisi, Psixoloji, Tibbi və Pedaqoji Komitələrin üzvü və ya xüsusi təhsil işçisi tərəfindən başlanıla və asanlaşdırıla bilər. Planlama prosesində ən önəmli maraqlı tərəflər uşaq və onun ailəsidir. Fasilitator yalnız onların səsini eşitməklə qənaətlənməməli, həmçinin uşaq və onun ailəsinin planlama prosesinin hər addımında iştirakını təmin etməlidir. Bura uşaq və onun valideynlərinin bütün iclas və görüşlərə dəvət edilməsi, uşaq və valideynlərinə anlaşıqlı şəkildə olmaqla məlumatların təmin edilməsi, onların dinlənməsi, eləcə də onların gözləntiləri, prioritetləri və narahatlıqlarına hörmətlə yanaşılması daxildir. Qardaş və bacıları da dinləmək çox əhəmiyyətlidir. Uşaq adətən bacı və qardaşları ilə çox vaxt keçirir. Onlar` uşaq haqqında xüsusi məlumatları təmin edə bilər və onların dəstəklənməsi, xüsusilə sosial biliklərin əldə edilməsində çox mühüm rol oynayırlar.

**"Fasilitator uşaq və onun ailəsinin planlama prosesinin hər addımında iştirakını təmin etməlidir."**

Məktəbdəki iştirakçılara sinif müəllimi (sinifdəki əsas müəllim), olduğu təqdirdə fənn müəllimləri (məsələn, rəsm müəlliməsi, xarici dil müəllimi və ya idman müəllimi), direktor, məktəb psixoloqu və uşağın dostları daxildir. Uşaq bir təhsil səviyyəsindən digərinə keçid etdiyi təqdirdə (məsələn, baxçadan ibtidai məktəbə və ya ibtidai sinifdən orta təhsil səviyyəsinə) hər iki məktəbin müəlliminin bu prosesə cəlb edilməsi işlərin gedişatına yardımçı ola bilər. Uşağın dostlarını da dinləmək vacibdir. Onlar uşağın arzuları, narahatlıqları və sosial vəziyyətinə dair xüsusi məlumatları təmin edə bilər. Bu komandaya zorbalıq (bullinq) kimi halları aşkar etməyə kömək edir. Dostlar evdə və

məktəbdə sosial dəstəyin təmin edilməsində mühüm rol oynaya bilər.
İmkan daxilində xüsusi pedaqoqlar, terapevtlər və sosial işçilər planlama prosesinə cəlb edilməlidir. Xüsusi pedaqoqlara xüsusi məktəb müəllimləri, jest dili tərcüməçisi və Brayl mütəxəssisi daxildir. Terapevtlər loqoped, erqoterapevt və ya fizioterapevt ola bilər. Xüsusi pedaqoqlar və terapevtlər öyrənməni dəstəkləmək üçün ehtiyacları qiymətləndirməyə, müvafiq hədəfləri müəyyən etməyə və bu hədəflərə nail olmaq üçün strategiyaların təklif edilməsinə yardım edə bilər. Sosial işçilər mövcud resursların bölüşdürülməsi sxeminin qurulması və təmin edilməsi, müxtəlif maraqlı tərəflərin əlaqələndirilməsi, ailə üzvlərindən məlumatların toplanması və ümumi mənzərənin yaradılmasında dəstək ola bilər.

Azərbaycandakı psixoloji, tibbi və pedaqoji komitələr hal-hazırda islahatlar mərhələsindədir. Əsasən diaqnostika, sertifikasiya və qərarların qəbul edilməsinə fokuslanmağın əvəzinə onlar Ailə və Uşaq Dəstək Planlarını dəstəkləyə bilərlər. Onlar məktəbin bu mühiti necə adaptasiya etməsinə dair tövsiyələrin verilməsi, o cümlədən xüsusi dəstək və resursların təmin edilməsində potensial  mühüm rol oynayır. Bu komitələrin fokusunu fərdi tədbirlər və məhdudlaşdırıcı yerləşmə imkanlarından inklüziv təhsilin dəstəklənməsinə yönəldəcək.

## Uşaq və Ailə Dəstək Planı necə hazırlanmalıdır?

Uşaq və Ailə Dəstək Planının hazırlanması əvvəlki bölmədə təsvir edildiyi kimi müxtəlif maraqlı tərəflərin birgə səyinin nəticəsidir. Proses fasilitatorun seçilməsi ilə başlanır. Bu ümumtəhsil müəssisəsi, xüsusi məktəb, rayon təhsil idarəsindən ixtiyari işçi və ya sosial işçi ola bilər. Fasilitator planın hazırlanması, maraqlı tərəflərdən komandanın yaradılması, görüşlərin təşkili, eləcə də planın müntəzəm olaraq nəzərdən keçirilməsinin təmin edilməsi üçün məsuliyyət daşıyır.




Fasilitator ilk addım olaraq hansı məlumatların kim tərəfindən toplanmasını müzakirə etmək üçün bütün maraqlı tərəfləri bir yerə yığmalıdır. Məlumatlar toplandıqdan sonra maraqlı tərəflər yenidən görüşərək məlumatları birlikdə təhlil, habelə prioritetləri, hədəfləri, güclü tərəfləri, dəstək ehtiyacları, strategiyalar, resurslar və baryerləri müzakirə etməlidir. Uşaq və Ailə Dəstək Planının tamamlanması fasilitator tərəfindən koordinasiya olunmalıdır (şablon üçün əlavə 1-ə baxın). Maraqlı tərəflərdən ibarət komanda planın icrasına nəzarət edilməsi və lazım gəldikdə düzəlişlərin edilməsi üçün müntəzəm əsasda görüşlər keçirməlidir.

Uşaq və Ailə Dəstək Planının şablonu uşaq və onun ailəsi üçün prioritetlər, hədəflər və gözləntilər, eləcə də bu hədəflərə nail olmaq üçün onların necə dəstəklənəcəyinə dair məlumatlarla başlanır. Əsas diqqət uşağın nə edə biləcəyi və nə əldə etmək istədiyi, habelə bu hədəflərə nail olmaq üçün hansı dəstəyə ehtiyac duya biləcəyi üzərində cəmlənir. Fokus zəif cəhətlər və ya çatışmazlıqlar, o cümlədən fərdi çətinliklərin necə aradan qaldırılması deyil.

Başlıq səhifəsi və ilk cədvəllər uşağın və onun ailəsinin şəxsi məlumatlarını əks etdirir. Bu hissədə uşaq və onun valideynlərinin adı, ünvanı, qeydiyyat nömrələri və s. kimi mühüm qeydiyyat məlumatları öz əksini tapır.

**Bölmə A:**

Mütəxəssis uşaq haqqında nəyi bilməlidir – bu bölmə uşaq və valideynlərin baxışları, maraqları, ümidləri və istəklərinin qeyd edildiyi yerdir. Bu hissə uşaq və valideynlərlə aparılan müsahibələrə əsaslanır.

**Bölmə B:**

Qiymətləndirmə – bu bölmə uşağın müxtəlif sahələrdə güclü tərəfləri, bacarıqları və ehtiyaclarını özündə əks etdirir, bura daxildir:

- Ünsiyyət və qarşılıqlı əlaqə
- Dərketmə qabiliyyəti və öyrənmə
- Sosial, emosional və əqli sağlamlıq
- Hissiyat və fiziki tələblər
- Sağlamlıq tələbləri

Plan hər bir ehtiyac sahəsini nəzərə almaqla sinif şəraitinin, təlim və tədris strategiyalarının uşağın tədris proqramında ədalətli şəkildə iştirakının həyata keçirilməsinə uyğunlaşdırılması yollarını nəzərdən keçirməlidir. Sözügedən planda uşağın hər bir ehtiyac sahəsi üzrə tədris proqramı

və hədəflərə nail olması üçün bərabərhüquqlu əlyetərliyi təmin edəcək sinif mühitinə adaptasiya etməsi üsulları müəyyən edilməlidir. Qiymətləndirmə müxtəlif informasiya mənbələrinə - uşaq, valideynləri, bacı-qardaşları və dostları, habelə lazım gəldikdə formativ sinif qiymətləndirməsi və xüsusi təhsil işçiləri və ya terapevtlər tərəfindən xüsusi qiymətləndirmənin nəticələrinə əsaslanır. Qiymətləndirmə yalnız mütəxəssislər tərəfindən aparılmır. Bütün maraqlı tərəflər məlumatların təhlili və dəstəyə ehtiyacı olan hissələr, eləcə də güclü tərəflərin seçilməsində səs hüququna malikdir.

## Bölmə C:

Hədəflər–burada uşaq üçün qısa və uzun müddətli nəticələr (hədəflər) qeyd edilir. Bu ailə və mütəxəssislərə uşağın hədəflərə çatmaq istiqamətində vəziyyətini müəyyən etmək üçün ümumi təsəvvür yaratmağa yardım edir. Yenə də qeyd etmək istərdik ki, bu yalnız mütəxəssislərin məsuliyyəti deyil, bütün maraqlı tərəflərin birgə səyinin nəticəsi olmalıdır.

## Bölmə D:

"Dəstəyin təmin edilməsi" adlı Bölmə D-də Bölmə C-dəki təlim hədəflərinə nail olmaq üçün strategiyalar müəyyənləşdirilir və hansı dəstək, təminat və ya resursların lazım olduğunu təyin edilir. Bu gündəlik sinif şəraiti və dərslərin planlaşdırılması məqsədilə müəllimlər, o cümlədən uşaqlar və valideynlərə evdə və məktəbdə nə baş verəcəyini izləməsi üçün lazımlı vasitədir. Çox ehtimal ki, sadə strategiyalar və ümumtəhsil müəllimləri və ya valideynlər tərəfindən kiçik dəyişikliklər etməklə hədəflərin əksəriyyətinə nail olmaq olar. Bəzi hallarda, konkret hədəflərə nail olmaq üçün xüsusi dəstək və təminatlara ehtiyac duyula bilər.

## Plan üzrə rəyin sxemi

"Plan üzrə rəyin bildirilməsi sxemi" adlı yekun cədvəl Uşaq və Ailə Dəstək Planına növbəti baxışın keçirilməsi üçün tarix və şərtləri əks etdirir. Bura planlama prosesinə əsas addımlar kimi monitorinq, rəyin bildirilməsi və düzəlişlərin edilməsi daxildir.

## Uşaq və Ailə Dəstək Planlarına baxışın keçirilməsi

Failitator ən azı 6 aydan bir mütəmadi keçiriləcək ailə və müvafiq mütəxəssislərlə birgə görüşdə planın icmalına baxılmasına rəhbərlik etməlidir. İmkan daxilində uşaq da bu görüşdə iştirak etməlidir. Əgər uşaqlar aparılan müzakirəni anlaya bilməyəcək kiçik yaşdadırsa, bu zaman onların fikirlərini öyrənmək üçün uşaqlarla məsləhətləşmələr aparılmalıdır.

Rəy planın hər bir bölməsini özündə əks etdirməli və qeyd olunan informasiyanın yeniliklərə uyğunluğu, düzgünlüyü və ya tərəqqi hesabatları və qiymətləndirmələrə əsasən düzəlişlərə ehtiyac duyub-duymadığını müəyyənləşdirməlidir. Hər bir qısa və uzun müddətli hədəf uşağın bu istiqamətdə irəliləyişinin olub-olmadığının yoxlanılması və aradan qaldırılmasına ehtiyac duyulan çətinliklərin müəyyən edilməsi məqsədilə müzakirə edilməlidir. Rəy, xüsusilə sinif şəraitinin, təlim və tədris strategiyalarının uşağın tədris proqramında ədalətli şəkildə iştirakının həyata keçirilməsinə uyğunlaşdırılması yollarını nəzərdən keçirməlidir.

## UŞAQ VƏ AILƏ DƏSTƏK PLANININ HAZIRLANMASINDA YOL VERDIYIMIZ XƏTALAR

- Plan əlilliyin tibbi modeli əsasında hazırlanır
  Planda əsas diqqət öyrənmə və iştirakda olan maneələr əvəzinə, uşaqda olan çatışmazlıq və əngəllər üzərində cəmlənir. Məqsəd və strategiyalar uşağın tədris planını mənimsəməsi üçün əlverişli akkomadasiyalar, uyğun mühit və təlim üslubunun yaradılması əvəzinə, uşağı mövcud təhsil sisteminə uyğunlaşdırmağa hədəflənir.

- Uşaq və Ailə Dəstək Planı yalnız ümumi təhsil müəllimi və ya xüsusi pedaqoq tərəfindən hazırlanır
  Uşaq və Ailə Dəstək Planının hazırlanması bütün maraqlı tərəflərin (yəni müəllimlər, xüsusi təhsil müəllimləri, psixoloq və məsləhətçilər, terapevtlər, ailə və mümkün olduqda uşağın özü) qarşılıqlı səylərinin nəticəsi olmalıdır. Yalnız bütün maraqlı tərəflər birlikdə işlədiyi halda ümumi bir mənzərənin yaradılması və mümkün dəstək, təchizat və resursların müəyyən edilməsindən söhbət gedə bilər.

- Uşağın iştirakının nəzərə alınmaması
  Xüsusilə də, uşaq yaşca kiçik olduqda, əqli gerilik və ya özünü verbal olaraq ifadə etmək çətinliyinə malik olduqda, onun fikirlərinin diqqətə alınmaması hallarına tez-tez rast gəlinir. Ancaq mənalı və müvafiq bir planın hazırlanması üçün uşağın fikirlərinin də nəzərə alınması

olduqca mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən fasilitatorlar tərəqqi və icmal toplantılarında uşağın da iştirakını təmin etmək üçün mümkün olan hər şeyi etməlidir. Bunu həyata keçirmək üçün bütün maraqlı tərəflər müzakirə mövzusunu sadələşdirməli və uşaqlar üçün əlverişli metodlardan, bundan başqa lazım gələrsə, alternativ ünsiyyət sistemlərindən (məsələn, yazılı mətnləri izah etmək üçün şəkillər, işarət dili, Brayl əlifbası və s.) də istifadə etməlidir. Əgər bunları həyata keçirmək üçün uyğun şərait yoxdursa, toplantıdan öncə uşaqla individual görüş keçirmək, anlaşılır söhbət aparmaq və onun fikir və görüşlərini öyrənmək lazımdır.

- Plan hazırlanır, lakin təcrübədə istifadə olunmur
  Olduqca çox rast gəlinən haldır ki, Uşaq və Ailə Dəstək Planları hazırlanır, lakin təcrübədə tətbiq olunmur. Uşaq və Ailə Dəstək Planı bütün maraqlı tərəflər üçün inklüziv sinif təcrübəsinin gündəlik planlanması və idarə edilməsi məqsədilə istifadə olunan bir vasitəyə çevrilməlidir. Əks təqdirdə onu komanda daxilində müzakirə etmək lazımdır. Məsələn, məqsədlər realist və ya işləmək üçün kifayət qədər müvafiq olmaya, qiymətləndirmə bölməsi sinif mühitinin necə olması barədə və təlimatln necə yerinə yetirilməsi barədə detallı məlumatı özündə əks etdirməyə, təminat bölməsi məqsədlərə nail ola bilmək üçün hansı strategiyaların həyata keçirilməsinə dair aydın olmaya və ya strategiyalar məqsələrə müvafiq olmaya bilər.

- Plan yenidən gözdən keçirilməyib və yenilənməyib
  Uşaq və Ailə Dəstək Planı uşaqların dəyişən ehtiyaclarını ödəmək üçün mütəmadi olaraq yenilənən dinamik bir vasitə kimi qəbul edilməli və dəyişən məktəb şərtləri və icmalarla uyğunlaşmalıdır. Məsləhət olunur ki, plana ən azı 6 aydan bir yenidən baxılsın.

- Dəstək, təminat və resurslara olduqca dar çərçivədən baxılır.

Bəzi məktəb icmalarında xüsusi pedaqoq və ya terapevtlərdən əlavə dəstək almaq və ya Brayl əlifbası, jest dili olan kitablara çıxış daha asandır. Bir sıra digər məktəb icmalarında bu proses daha çətin olacaq. Hətta uzaqda yerləşən, kənd tipli və ya yoxsul məktəb icmalarında yaradıcı olmaq və mövcud resursları müəyyən etmək mümkündür. Buraya uşaqları məktəbə gətirmək və ya yerli QHT və ya xeyriyyə cəmiyyətlərini dəstəkləmək məqsədilə müəllimlər, ictimai könüllülər və ya digər uşaqlar arasında həmdəstək qrupu yarada biləcək məktəb rəhbərliyi tərəfindən aparılan tədbirlər aid edilə bilər.

## Məlumatların toplanması strategiyası

Əvvəlki bölmədə müzakirə edildiyi kimi Uşaq və Ailə Dəstək Planının tamamlanması üçün məlumatların toplanması bütün maraqlı tərəflərin birgə səyi nəticəsində həyata keçirilməlidir. Qiymətləndirmə müxtəlif məlumat mənbələrinə əsaslanır:

- Ümumtəhsil ocağının müəllimi tərəfindən sinif qiymətləndirməsi: Bura formativ qiymətləndirmənin nəticələri və müəllimin istənilən halda bütün şagirdləri qiymətləndirmək üçün topladığı məlumat daxildir.
- Mütəxəssislərin qiymətləndirməsi: bura lazım olduqda xüsusi pedaqoqlar və ya terapevtlər tərəfindən xüsusi testlərin aparılması daxil edilə bilər
- Uşaq, valideynlər, bacı-qardaş və ya dostlardan toplanan məlumatlar

Uşaqlar, valideynləri, bacı-qardaşları və dostlarından məlumatların toplanmasının bir çox yolları var. Məsələn, MAPS (McGill Fəaliyyətlərin Planlaşdırılması Sistemi)[6] Uşaq və Ailə Dəstək

6. https://www.includingsamuel.com/sites/www.includingsamuel.com/files/maps.pdf

Planı üzrə şablonunun doldurulmasına yardım edəcək 7 sual dəstini təqdim edir:

- Tarixçəni danış/Uşağınızın tarixçəsini danışın?
- Sənin arzun nədir?/Uşağınız üçün nə arzu edirsiniz?
- Qarabasma və qorxuların nədir?/Uşağınızın qarabasma və qorxuları nədir?
- Güclü tərəfin, xüsusi bacarıqların və qabiliyyətin hansılardır?/ Uşağınızın güclü tərəfi, xüsusi bacarıqları və qabiliyyəti hansılardır?
- Ehtiyacların nədən ibarətdir?/ Uşağınızın ehtiyacları nədən ibarətdir?
- Sənin üçün məktəbdə ideal gün necədir və onun baş verməsi üçün nə etmək lazımdır?/ Uşağınız üçün məktəbdə ideal gün necədir və onun baş verməsi üçün nə etmək lazımdır?

Uşaqlardan müsahibə alan zaman uşaqyönümlü üsul və vasitələrdən istifadə edilməsi tövsiyə olunur. Məsələn, buraya uşaqdan sözlə cavab verməyin yerinə şəkil çəkməsini xahiş etmək, şəkil və cizgilərə əsaslanan söhbətlər aparmaq və ya onların fikirlərini müzakirə etmək üçün kiçik oyunların keçirilməsi daxil edilə bilər. Aşağıda sadalanan bəndlərə xüsusi diqqət ayrılmalıdır:

- Söhbətin qeyri-rəsmi yöndə aparılması
- Əsas mövzuya keçməzdən öncə uşağın özünü rahat hiss etməsi üçün söhbətin asan və qeyri-rəsmi suallardan başlanması
- Müsahibə götürən pozitiv, dostcanlı, həssas və dəstəkləyici olmalıdır
- Çox vacib şey olmadığı halda səsyazan cihazdan istifadə etməyin və yalnız yazılı qeydlər aparın
- Uşağın reaksiyası və cavablarına təsir etməsi ehtimalının olması səbəbindən müsahibə zamanı digər böyüklərin (müəllimlər, valideynlər, baxıcılar) olması tövsiyə olunmur.



# Hədəflərin qoyulması

Uşaq və Ailə Dəstək Planlarının C Bölməsi əsas diqqəti uzun və qısa müddətli hədəflərin müəyyən edilməsi üzərində cəmləyir. Hədəflər uşağın və ailəsinin şəxsi prioritetləri, komanda tərəfindən məlumatların toplanması və qiymətləndirilməsinə əsaslanaraq qarşılıqlı əməkdaşlıq çərçivəsində hazırlanmalıdır. Uzunmüddətli hədəflərə dərs ili ərzində nail olunacaq hədəflər daxildir. Qısamüddətli hədəflərə nail olmaq üçün vaxt kəsiyi 1-6 ay arasında dəyişir.

**Hədəflər aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:**

- **Konkret**
- **Ölçülə bilən**
- **Nail oluna bilən**
- **Müvafiq**
- **Vaxt məhdudiyyətli**

Bəzi nümunələr:

'Sosial, emosional və əqli sağlamlıq' sahəsində hədəflər

- Uzunmüddətli hədəf
    - Ramil ilin sonunda qəzəbini idarə etməyi öyrənmək üçün böyüyə etibar edəcək
- Qısamüddətli hədəflər
    - Ramil birinci rübün sonunda baş vermiş hadisənin ardınca məktəb psixoloqu ilə danışmaq üçün qətiyyətli olacaq
    - Ramil ikinci rübün sonunda sorğu-sual edildikdə özünü məktəb psixoloqu ilə təmkinli aparacaq
    - Ramil üçüncü rübün sonunda fəaliyyətə keçməzdən öncə özünü hirsli hiss etdikdə məktəb psixoloquna bu barədə danışacaq

'Ünsiyyət və qarşılıqlı münasibət' sahəsində hədəflər

- Uzunmüddətli hədəf
    - Nərmin ilin sonunda ən azı 5 müxtəlif ehtiyacını ifadə etmək üçün işarə və sözlərin kombinasiyasından istifadə edəcək
- Qısamüddətli hədəflər
    - Nərmin birinci rübün sonunda ən azı 5 ehtiyac üçün işarələri bilir
    - Nərmin ikinci rübün sonunda tələsdirildikdə ən azı 3 ehtiyacını söz və işarələrin kombinasiyası şəklində ifadə edə bilir
    - Nərmin üçüncü rübün sonunda ən azı 5 ehtiyacını söz və işarələrin kombinasiyası şəklində ifadə etməklə ünsiyyət qurmağa təşəbbüs edir

## Yekun

"Uşaq və Ailə Dəstək Planları" üzrə əlavə kitabça "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması proqramları"-nın 4.9-cu bölməsini dəstəkləmək üçün əlavə məlumatlar təqdim edir. Kitabça inklüziv təhsilin icrası üçün ənənəvi yanaşmaları və FTP-lərin baryerləri aradan qaldırmaq əvəzinə necə maneələr yarada biləcəyindən bəhs edir. Uşaq və Ailə Dəstək Planları əlilliyin sosial modeli və inklüziv təhsilin bərabərhüquqlu yanaşmasına əsaslanan vasitə kimi təqdim edilir. Əsas diqqət uşaqların 'düzəldilməsinə' deyil, baryerlərin müəyyən edilməsi, resursların bölüşdürülməsi sxeminin qurulması və hamı üçün baryerlərin aradan qaldırılması məqsədilə qarşılıqlı səylərin göstərilməsi üzərində cəmlənir.  Kitabçada Uşaq və Ailə Dəstək Planının maraqlı tərəflərdən qurulmuş komanda tərəfindən necə hazırlanması prosesi təqdim edilir. Buraya şablon əlavə edilərək onun müxtəlif hissələri detallı şəkildə müzakirə olunur. "Məlumatların toplanması strategiyası" bölməsində müxtəlif maraqlı tərəflərin məlumatların toplanmasına necə öz töhfəsini verə biləcəyindən, o cümlədən uşaqlar, ailələri və dostlarından məlumatların toplanması üçün MAPS çərçivəsi (McGill Fəaliyyətlərin Planlaşdırılması Sistemi) və uşaqları müsahibə etmək üçün uşaqyönümlü üsullardan bəhs edir. "Hədəflərin qoyulması" adlı sonuncu bölmədə daha geniş məlumat verilərək Ailə və Uşaq Dəstək Planları üzrə uzun və qısamüddətli hədəflərin necə müəyyən ediləcəyi müzakirə olunur.

# Əlavə 1 – Uşaq və Ailə Dəstək Planının şablonu

## Uşaq və Ailə Dəstək Planı

Uşağın adı:

Uşağın şəklini buraya yapışdırın:

| | |
|---|---|
| Planın başlama tarixi: ______________ | Planın nömrəsi ___________ |
| Bu plan növbəti dəfə nəzərdən keçiriləcək: ______________ | |
| Son rəyin tarixi: _____________________ | |

| Mənim şəxsi məlumatlarım | | |
|---|---|---|
| Soyad ______________ | Soyad ______________ | Soyad ______________ |
| Ünvan ______________ | | |
| Doğum tarixi ________ | Doğum tarixi ________ | Doğum tarixi ________ |
| Etnik mənsubiyyət ______________ | Etnik mənsubiyyət ______________ | |

| Mənim valideynim(lərim)/ Baxıcım(larım) | |
|---|---|
| Soyad ______________ | Ad ______________ |
| Ünvan ______________ | |
| Telefon nömrəsi ______________<br>Mobil nömrə ______________ | Uşaq ilə əlaqə ______________ |
| E-poçtu ______________ | |
| Soyad ______________ | Ad ______________ |
| Ünvan ______________ | |
| Telefon nömrəsi ______________<br>Mobil nömrə | Uşaq ilə əlaqə ______________ |
| E-poçtu ______________ | |

# Bölmə A: Nəyi bilməlisiniz

| **<u>Bölmə A</u>: Və Validеynlərin baxışları, maraqları, ümidləri və arzuları** |
| --- |
| Mən kiməm<br>-------------------- |
| İnsanlar məndə nəyi bəyənir<br>-------------------- |
| Mənimlə necə ünsiyyət qurmaq və məni necə dəstəkləmək olar<br>-------------------- |
| Mən nə xoşlayıram və nəyi daha yaxşı bacarıram<br>məktəbdə<br>-------------------- |
| məktəb xaricində<br>-------------------- |
| Hal-hazırda çox yaxşı gedən şeylər nədir<br>-------------------- |
| Bu il nəyə nail olmaq istəyirəm<br>-------------------- |
| Mən özümü yetkin insan olanda necə görürəm<br>-------------------- |
| Valideynlərim mənim bu il nəyə nail olmağımı istəyir<br>-------------------- |
| Valideynlərim mənim gələcəyimi necə görmək istəyirlər<br>-------------------- |

# Bölmə B: Mənim qiymətləndirməm

| <u>Bölmə B:</u> Güclü tərəflər və ehtiyaclar |
|---|
| Ünsiyyət və qarşılıqlı əlaqə<br>Güclü tərəflər və bacarıqlar<br>--------------------<br>Ehtiyaclar<br>-------------------- |
| Dərketmə və öyrənmə<br>Güclü tərəflər və bacarıqlar<br>--------------------<br>Ehtiyaclar<br>-------------------- |
| Sosial, emosional və əqli sağlamlıq<br>Güclü tərəflər və bacarıqlar<br>--------------------<br>Ehtiyaclar<br>-------------------- |
| Hissetmə və fiziki ehtiyaclar<br>Güclü tərəflər və bacarıqlar<br>--------------------<br>Ehtiyaclar<br>-------------------- |
| Tibbi xidmətlər<br>Güclü tərəflər<br>--------------------<br>Ehtiyaclar<br>-------------------- |

# Bölmə C və D: Mənim hədəfim və təminatlarım

## Bölmə C: Hədəflər

Ünsiyyət və qarşılıqlı əlaqə
Uzunmüddətli hədəf

--------------------

Qısamüddətli hədəf (lər)

--------------------

Dərketmə və öyrənmə
Uzunmüddətli hədəf (lər)

--------------------

Qısamüddətli hədəf (lər)

--------------------

Sosial, emosional və əqli sağlamlıqda çətinliklər
Uzunmüddətli hədəf

--------------------

Qısamüddətli hədəf (lər)

--------------------

Hissetmə və fiziki ehtiyaclar
Uzunmüddətli hədəf

--------------------

Qısamüddətli hədəf (lər)

## Bölmə D: Bölmə D-də qeyd edilən hədəflərə çatmaq üçün ixtiyari dəstək və təminatlar (hökumət, məktəb, səhiyyə mərkəzi, QHT-lər, özəl təşkilatlar və ya ailə)

| Qısamüddətli təlim hədəfləri | Bu hədəfə nail olmaq üçün hansı var? | Bu dəstəyi kim təmin edəcək? | Hansı zaman diapozonları ilə? | Hansı resurslara ehtiyac var? |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

| **Plan üzrə rəyin sxemi**<br>Bu ən azı ildə bir dəfə həyata keçirilməlidir | |
|---|---|
| Növbəti rəyin tarixi: | |
| Növbəti rəyin hazırlanmasında tələb olunan mütəxəssislər: | |
| Bu plan üzrə rəyin hazırlanması üçün tələb olunan aparıcı mütəxəssis: | |
| Əlaqə: | |

# İstinadlar

Ainscow, Mel. Understanding the Development of Inclusive Schools. London: Falmer Press, 1999.
Ainscow, Mel, Tony Booth, and Alan Dyson. Improving Schools, Developing Inclusion. London and New York: Routledge Taylor & Francis Group, 2006.
Armstrong, Ann Cheryl, Derrick Armstrong, and Ilektra Spandagou. Inlcusive Education. International Policy and Practice. London, California, New Delhi and Singapore: SAGE Publications, 2010.
Barton, Len. "Inclusive Education: Romantic, Subversive or Realistic?". International Journal of Inclusive Education 1, no. 3 (1997): 231-42.
Corbett, Jenny. Supporting Inclusive Education. A Connective Pedagogy. London and New York: RoutledgeFalmer Taylor & Francis Group, 2001.
Ekins, Alison, and Peter Grimes. Inclusion: Developing an Effective Whole School Approach. Berkshire: Open University Press, 2009.
Florian, Lani, and Kristine Black-Hawkins. "Exploring Inclusive Pedagogy." British Educational Research Journal 37, no. 5 (2011): 813-28.
Hitchcock, Chuck, Anne Meyer, David Rose, and Richard Jackson. "Providing New Access to the General Curriculum. Universal Design for Learning." Teaching Exceptional Children 35, no. 2 (2002): 8-17.
Liasidou, Anastasia. Inclusive Education and the Issue of Change. Theory, Policy and Pedagogy. New York: Palgrave Macmillan, 2015.
Slee, Roger. "'Inclusion in Practice': Does Practice Make Perfect?". Educational Review 53, no. 2 (2001): 113-23.
UN Committee on the Rights of Persons with Disabilities. "General Comment No.4 (2016), Article 24: Right to Inclusive Education, Crpd/C/Gc/4." Retrieved from: http://www.refworld.org/docid/57c977e34.html (Last accessed on 07/09/18): UN Committee on the Rights of Persons with Disabilities, 2016.
UNESCO. "A Guide for Ensuring Inclusion and Equity in Education." Paris: UNESCO, 2017.